***İrəvan tarixi Azərbaycan torpağıdır. Bizim üçün Bakı, Gəncə, Şəki, Naxçıvan və başqa şəhərlərimiz nə qədər doğmadırsa, tarixi İrəvan da o qədər əzizdir. İrəvanın Azərbaycan ərazisində, bizim əzəli torpaqlarımızda yerləşməsi tarixi faktdır. Prezidentimizin də dediyi kimi, bu faktı sübut etməyə ehtiyac belə yoxdur. Bu tarixdir. Məlum olduğu kimi, 1918-ci ildə Cənubi Qafqaz ərazisində ilk dəfə erməni dövləti yaradılıb.***

# UNESCO-ya ünvanlanan həyəcan siqnalı

Tarixlə maraqlanan hər kəs bilir ki, Şah İsmayıl Xətainin öz vəziri olan Rəvanqulu xana bu ərazidə qala tikdirməyi tapşıranda, xan isə qalaya öz adını verib buranı "Rəvan" qalası adlandıranda həmin ərazidə ermənilərin izi-tozu belə olmayıb. İndi bu qala ermənilərə məxsusdur? Deməzlərmi ki, məntiq haradadır? Bütün tarixi faktlar onu göstərir ki, Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaradılıb. Buna baxmayaraq riyakar qonşularımız iddia edirlər ki, bura bizimdir və adı da "Yerevanqala"dır. Bu ifadələri bizimlə söhbətində politoloq Natiq Quluzadə bildirdi.

– Amma belə hallar bizim üçün heç də təəccüblü deyil. Biz müxtəlif sahələrdə Azərbaycana məxsus maddi-mədəniyyət irsinin ermənilər tərəfindən özününküləşdirməyə çalışıldığının dəfələrlə şahidi olmuşuq. Sevindirici haldır ki, istər Prezidentimizin, istərsə də, müvafiq sahələr üzrə təyin edilmiş məsul şəxslərin qətiyyəti sayəsində dünya ictimaiyyətinə həqiqətləri olduğu kimi, dəyişdirilmədən, şəffaf şəkildə çatdırmağı bacarırıq. Bu gün isə İrəvanda Azərbaycan xalqına aid sonuncu maddi irslərdən biri olan Təpəbaşı məhəlləsi təhlükə altındadır. Belə ki, həmin ərazilərdə xalqımıza aid olan sonuncu mədəni irs nümuləri də dağıdılmaq üzrədir. Bu səbəbdən, ölkəmizin tanınmış ziyalıları, elm xadimləri Ermənistanın paytaxtı, tarixi Azərbaycan torpağı olan İrəvan şəhərində xalqımıza aid olan Təpəbaşı məhəlləsində mədəni irsimizə qarşı həyata keçirilən vandalizm, soyqırımı ilə bağlı UNESCO-nun baş direktoruna müraciət ediblər.

Müraciətdə UNESCO-nun dünyanın mədəni və təbii irsinə sahib çıxması, onların müəyyən edilib qorunması, mühafizəsində nə qədər həssas olduğu vurğulanıb. Qeyd edilib ki, bu müraciət təkcə Azərbaycan xalqına deyil, ümumilikdə dünya xalqlarına məxsus olan tarixi-mədəni irsin xilas edilməsi üçün edilib. Belə ki, müraciətin mətnində İrəvan şəhərinin qala hissəsi istisna olmaqla Şəhər, Dəmirbulaq və Təpəbaşı hissələrinə bölündüyü vurğulanıb.

Məlum olduğu kimi, hər üç hissədə XX əsrin əvvəllərinə, daha dəqiq desək, 1918-ci ilə qədər azərbaycanlılar yaşayırdı.

Müraciətin mətnində qeyd edilən ən maraqlı və ilk nəzərəçarpan faktlardan biri də, guya, qədim erməni şəhəri olan "Yerevanda" yaşı 200 ildən çox olan heç bir tarixi abidə, maddi-mədəni irs nümunəsi yoxdur. Bəs bunu necə izah etmək olar? Ermənilər bu ərazilərdə yaşayıb yaradıblar, amma bir dənə də olsun daşın üzərinə qoyulmuş daş, heykəlin üzərinə qoyulmuş baş yoxdur? Əvvəlki dövrlərdə onlar tamam başqa oğurluq siyasəti yeridirdilər. Belə ki, bizə məxsus olan tarixi-mədəni irsi, hətta milli yeməklərimizi, musiqilərimizi, musiqi alətlərimizi, torpaqlarımızı özlərininmiş kimi, dünyaya təqdim etməyə çalışırdılar. Lakin sonradan başa düşdülər ki, tarixi dəyişdirmək mümkün deyil. Həqiqət Günəş kimidir, Günəşi isə yırtıq örtüklə qapamaq olmaz. Onlar yalnız öz daxmalarının pəncərəsini həqiqətlərə bağlaya bilərlər. Bu səbəbdən, bizə aid olan mədəniyyət nümunələrini özününküləşdirməyə yox, məhv etməyə, tarixdən silməyə başladılar. Gülməlidir, deyilmi?

Gec-tez başa düşəcəklər ki, heç bir hiylə ilə dəyişdirə bilmədikləri tarixi, yox etmək, silmək, yoxmuş kimi davranmaq mümkün deyil. İlk mərhələni başa düşmələri 200 ilə yaxın vaxtlarını aldı. Ümid edirik ki, ikinci mərhələni anlamaları bu qədər uzun çəkməz.

***Hazırladı:***
***İmran ƏLİYEV, "Xalq qəzeti"***

Xalq qəzeti.- 2022.- 9 iyul.- S.6.